**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BƏDİİ MƏTNDƏ MORFOLOJİ ELEMENTLƏRİN POETİKASI

İxtisas: 5706.01- "Azərbaycan dili"

Elm sahəsi**:** Filologiya elmləri

**İddiaçı**: **Əliağa Sədri oğlu Səfərəliyev**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2026**

Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** filologiya elmləri doktoru, professor
**Mübariz İmran oğlu Yusifov**

**Rəsmi opponentlər:** filologiya elmləri doktoru, dosent
**Qızılgül Ağəli qızı Abdullayeva**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Günel Əmirxan qızı Hüseynova**

filologiya elmləri üzrə fəlsəfə doktoru
**Vüsalə Nofəl qızı Cəfərzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
____________________ **Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi:
filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
____________________ **Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
____________________ **Məhərrəm Əvəz oğlu Məmmədov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir Azərbaycan dilçiliyində artıq formal, sxematik, normativ qrammatika ənənələrindən kənara çıxan və yeni metodoloji əsaslara söykənən tədqiqatlara güclü meyillilik müşahidə edilir. Bu da müasir informasiya mərhələsində dilin struktur-semantik problemlərinin intensionallıq baxımından araşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dilçiliyi XIX əsrdə maarifçilik ənənələri üzrə formalaşaraq əsas etibarilə məktəbşünaslıq çərçivəsində tətbiq olunmuşdur. XX əsrdə isə Azərbaycan dilçiliyi rus dili qrammatikalarının strukturuna uyğun şəkildə qurulmuşdur. Tədris işində və bütün tədqiqat üsullarında həmin struktur texnologiyaları ənənəvi metodoloji bazaya çevrilmişdir. Bu metodologiyaya uyğun olaraq dilin semantik-intensional təzahürlərindən daha çox sxematik tərəfləri araşdırılmışdır ki, bunun da nəticələri başlıca olaraq yazılı dilə tətbiq edilməklə yekunlaşmışdır. Lakin dilin intensionallıq təbiəti təkcə yazılı dil və onun ənənələri ilə bitib tamamlanmır. Yazılı dil, əslində, sükunətdə olan, qapalı mühitə məruz qalan, statik xarakterli aqnostik təbiətli informasiya vasitəsidir. Yazılı dil nitq aktının struktur-ardıcıllıq prinsipinə əsaslanır və icbari qaydalarla tənzim olunur. Ona görə də yazılı dildə struktur dəyişdiriciliyi məqsədəuyğun görülmür və bu da onun konservativlik tələblərinin ödənilməsini təmin edir. Lakin dil təkcə konservativ tələblərin ifadə vasitəsi deyil, o həm də informasiyaların intensiv çatdırılmasına xidmət edən dinamizmə malikdir. Müasir dünya dilçiliyində informasiya intensivləşməsi ilə əlaqədar olaraq bu sahəyə daha çox diqqət yetirilir. Yəni dilin dinamik xarakteri tədqiqatlarda daha artıq üstünlük əldə edir. Bu ondan irəli gəlir ki, sinxron dil ünsiyyəti yazılı dildəkindən daha çox şifahi yolla çatdırılır. Burada isə intensivləşdirici vasitələrdən, ritorizmdən, emosiyaların canlandırılmasından daha çox istifadə imkanları yaranır. Odur ki, müasir informasiya əsrində dilin sxematik quruluşu ilə yanaşı, informasiya aktivliyini təmin edən qayda və üsulların öyrənilməsinə marağın artması da həm təbii və həm də qanunauyğun görünür. Müasir dilçilikdə intensionallıq problemlərinin araşdırılması və

təhlili daha çox Amerika dilçiliyində tətbiq olunan koqnitiv tədqiqat üsuluna və Avropada istifadə edilən nitq aktları nəzəriyyəsinə əsaslanır. Bu iki istiqamətin biri digərini istisna etmir, əksinə, biri o birisini məzmun və metodologiya baxımından tamamlayır. Hər iki istiqamətdə aparılan tədqiqatlarda fikrin, düşüncənin ifadə üsullarının məzmun planında araşdırılması əsas istiqamət təşkil edir. Müasir dilçilikdə bu metodologiya bazasında generativ (törədici) qrammatika yaradılması ideyası durur. Fikrin, düşüncənin intensiv, aktual, obrazlı ifadə formaları, əslində, nisbi yenilikdir. Yəni həmin formalar bütün dillərdə mövcuddur. Ancaq onun tədqiqat üsulları müasir informasiya mühitində yeni texnologiyalar üzərində qurulur. Azərbaycan dilində fikrin intensional ifadə vasitələri şifahi xalq ədəbiyyatında, nağıl və dastan dilində, xüsusilə "Kitabi-Dədə Qorqud"da eləcə də klassik bədii nümunələrində öz paralel ifadəsini tapır.

Dilin aktual ifadə vasitələri, əslində, bəlağətli, ritorik və emosional nitqlə bağlı formalaşır. Biz qədim hind, yunan və ərəb dilçiliyində tətbiq olunan *bəlağətli* və *fəsahətli* modellərin işlədilməsi üsullarına baş vurmadan məhz Azərbaycan şifahi dilində, o cümlədən "Kitabi-Dədə Qorqud"da işlənən obrazlı dilə müraciət etsək, ana dilimizdə *intensionallıq* ənənələrinin necə vüsətli olmasını təsəvvürə gətirə bilərik. Azərbaycan dilçiliyində nitq informasiyalarının intensivləşməsi, aktuallığı, obrazlaşdırıcılığı və bədii informasiya ilə əlaqədar bir sıra maraqlı və müasir tələblərə cavab verəcək tədqiqatlar aparılmışdır. Bunlara dair Əbdüləzəl Dəmirçizadə[1], Musa Adilov[2], "Azərbaycan bədii dilinin üslubiyyatı"[3], Qəzənfər

---

[1] Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşriyyat, –1962. – 271 s.),
–1962. – 271 s.),
2.Adilov, M. Azərbaycan dilində sintaktik təkrarlar / M.Adilov. – Bakı: Elm, – 1974. – 227 s. Azərbaycan bədii dilinin üslubiyyatı (Oçerklər) / red. M.Şirəliyev, Z.Budaqova. – Bakı: Elm, – 1970. – 356 s
3.Azərbaycan bədii dilinin üslubiyyatı (Oçerklər) / red. M.Şirəliyev, Z.Budaqova. – Bakı: Elm, – 1970. – 356 s.

Kazımov[4], Kamil Əliyev[5], Nadir Məmmədli[6], Kamal Abdullayev[7], Kamil Vəliyev[8] və digərlərini nümunə göstərmək olar.

Azərbaycan dilçiliyində *bədii informasiya* ilə əlaqədar aparılan tədqiqatların nəticəsi formal qrammatikadan intensional qrammatikaya keçidin təməlini yaradır. Bu istiqamətdəki tədqiqatların dərinləşdirilməsi və sistemləşdirilməsi sayəsində Azərbaycan dilinin obrazlı, *ritorik, poetik* və *semasioloji* prinsiplərə söykənən qrammatikasını yaratmağa xidmət edir. Tədqiqat üçün seçilmiş bu *mövzunun aktuallığı da məhz* Azərbaycan dilində *intensionallıq* məsələlərinin *morfoloji elementlər* hüdudunda araşdırılması ilə bağlıdır. Azərbaycan dilçiliyində nitq mədəniyyəti və xüsusən də üslubi məsələlərlə bağlı olaraq dil elementlərinin poetiklik xüsusiyyətləri bu və ya digər dərəcədə işıqlandırılmışdır. Aparılan tədqiqatlarda bir qayda olaraq dilçiliklə yanaşı, bədii sənətkarlıq məsələləri arasında, demək olar ki, bir müştərəklik müşahidə olunur. Bəzi hallarda isə poetizm məsələləri bilavasitə bədii sənətkarlıq kontekstindən şərh edilir. Həmçinin poetizm məsələlərinin nəzəri problemləri barədə üslubi kateqoriyalarla bağlı tədqiqatlarda da bəhs olunur. Azərbaycan dilçiliyində bədii poetizmlə bağlı müəyyən tədqiqat işləri aparılmışdır. Bədii poetizmlə bağlı əsərlərdə bir qayda olaraq Aristotelin "Poetika" əsəri bir istinadgah kimi nəzərə alınsa da, burada hər bir konkret dilin öz materiallarının yaratdığı bədii informasiyalar aparıcı yer tutur. Dil elementlərində təcəssüm olunan bədii informasiyalar, hər şeydən əvvəl, mental xüsusiyyətlərə malik olur. Bununla da hər hansı dildə bədii informasiyaların zəngin olduğu o dilin obrazlaşdırıcılıq keyfiyyətləri ilə ölçülür. Azərbaycan dilində emosionallıq,

---

[4] Kazımov, Q. Bədii ədəbiyyatda komizm üsulları / Q.Kazımov. – Bakı: Maarif, – 1987. – 228 s.),

[5] Əliyev, K. Üslubiyyat və üslublar sistemi / K.Əliyev.– Bakı: ADU, – 1985.– 81 s.

[6] Məmmədli N.B. "Azərbaycan dili və nitq mədəniyyəti" – Bakı: Elm və təhsil, – 2022, – s.532.

[7] Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.Abdullayev. – Bakı: Maarif, – 1998. – 281 s.

[8] Vəliyev, K. Linqvistik poetikaya giriş / K.Vəliyev. – Bakı: Azərbaycan Dövlət Universiteti, – 1989. – 104 s.

obrazlaşdırıcılıq keyfiyyətləri zəngin ənənələrə malik olduğundan bu dildə yaradılan bədii nümunələrdə güclü poetik varisliyin mövcudluğu müşahidə edilir. Məhz üslubi rəngarəngliklə, xüsusən də bədii poetizmlə bağlı olan araşdırmalarda bu kimi məsələlər aparıcı yer tutur. Bu sahədə Ağamusa Axundovun, Tofiq Hacıyevin, Kamal Abdullayevin, Möhsün Nağısoylunun, Kamil Vəliyevin, Türkan Əfəndiyevanın, Həcər Hüseynovanın, Sənubər Abdullayevanın, Aytən Bəylərovanın, Rafiq Yusifoğlunun və digər tədqiqatçıların apardığı araşdırmalar bədii poetizmin fundamental təhlil edilməsi işində çox mühüm təməl roluna malikdir[9]. Bu sahə üzrə bir çox tədqiqat işləri mövcud olsa da, morfoloji elementlərin poetizmi barədə konkret araşdırmalar aparılmamışdır. Müdafiəyə təqdim edilən bu əsərdə isə ilk dəfə olaraq morfoloji elementlər kontekstində qrammatik vasitələrin poetik xüsusiyyətləri intensionallıq baxımından araşdırılır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan bədii mətnlərinə dair seçilmiş nümunələrdən ibarətdir. Bədii mətnlərdə poetiklik nəzm və nəsrlə ifadə olunduğundan nümunələr həm nəzm, həm də nəsr mətnlərindən seçilmişdir. Burada həm də belə bir məsələyə diqqət yetirilir ki, nəsr əsərlərində poetizmi yaradan müvafiq dil elementləri iştirak etdiyi kimi, nəzm nümunələrində də poetiklik özünəməxsus elementlər vasitəsilə yaradılır. Yəni nəzm mətnləri heç də xalis poetik nümunələrdən

---

[9] Axundov, A. Dil və üslub məsələləri / A.Axundov. – Bakı: Gənclik, – 1970. – 103 s.; Hacıyev, T. Yazıçı dili və ideya-bədii təhlil / T.Hacıyev. – Bakı: Maarif, – 1979. – 130 s.; Abdullayev, K. "Kitabi-Dədə Qorqud" poetikasına giriş / K.Abdullayev. – Bakı: PS Poliqraf MMC, – 2017. – 320 s.; Nağısoylu, M. Üslublar: [Elektron resurs]. URL: Kayzen.az/blog/Azərbaycan dili/15459/üslublar.html; Vəliyev, K. Dastan poetikası /K.Vəliyev. – Bakı: Yazıçı, –1984. – 221 s.; Əfəndiyeva, T. Azərbaycan bədii dilinin üslubiyyat problemləri / T.Əfəndiyeva. – Bakı: Elm, – 2001. – 181 s.; Hüseynova, H. Mir Cəlalın bədii əsərlərinin dili və üslubu / H.Hüseynova. – Bakı: Elm, – 2008. – 504 s.; Abdullayeva, S. Azərbaycan nağıl və dastanlarının dili /S.Abdullyeva. – Bakı: Elm, – 1998. – 232 s.; Bəylərova, A. Bədii dildə üslubi fiqurlar / A.Bəylərova. – Bakı: Nurlan, – 2008. – 212 s.; Yusifoğlu, R. Poetika haqqında düşüncələr: [Elektron resurs]. URL: Manera.az/edebiyyat/2547-Poetika-haqda-düşüncələr./html.

ibarət olmur. Tədqiqat işində əsas məsələ nəzm və nəsrdəki morfoloji poetizm elementlərini səciyyələndirməkdən ibarətdir. *Tədqiqatın predmeti* bədii informatikanın təməlini yaradan poetizmin linqvistik-morfoloji elementlərinin struktur tərkibi və onların sistem münasibətləridir.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqatın məqsədi *morfoloji* elementlərin iştirakı ilə bədii informasiyanın aktuallaşma xüsusiyyətlərini müəyyən etməkdən ibarətdir. Mövcud təqiqatların təcrübəsi əsasında onu demək olar ki, bədii informasiyanın aktuallaşması və intensivləşməsi üçün *ritmika, ritorika* və emosionallıq aparıcı yer tutur. Bunların hər biri funksiya etibarilə obrazlaşdırıcılığa xidmət edir. Bədii üsluba aid tədqiqatlarda bir qayda olaraq ritmika, ritorika və emosiya barədə ümumi şəkildə bəhs olunur və onların obrazlaşdırıcılıq xarakteri həmin təməllər üzrə şərh edilir. Lakin bunlar ümumi şəkildə obrazlaşdırıcılığın bir tərkib hissəsini təşkil etsə də, ifadə vasitələrinin arasında müəyyən fərqlər vardır. Məqsəd isə ritmikaya, ritorikaya və emosiyaya xas olan ifadə vasitələrini meydana çıxarmaqla hər birinin funksional xarakterinin açılmasından ibarətdir. Bu məqsədlə tədqiqat işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi diqqəti cəlb edir:

–Bədii mətnlərdə ritmika və onun morfoloji ifadə vasitələrinin müəyyən edilməsi;

– Şeir dilində morfoloji elementlərin ritmik xüsusiyyətləri;

– Nəsr dilinin morfoloji elementlər üzrə poetikləşməsində ritmikanın rolu;

– Bədii mətnlərdə ritorika və onun morfoloji ifadə vasitələri;

– Şeir dilində morfoloji elementlərin ritorik xüsusiyyətləri;

– Nəsr dilinin morfoloji elementlər üzrə poetikləşməsində ritorikanın rolu;

– Bədii mətnlərdə emosiya və onun morfoloji ifadə vasitələri;

– Şeir dilində morfoloji elementlərin emosionallıq xüsusiyyətləri;

– Nəsr dilinin morfoloji elementlər üzrə poetikləşməsində emosionallığın rolu.

**Tədqiqatın metodları**. Tədqiqat zamanı təhlil olunan materialın xarakterindən asılı olaraq daha çox təsviri metoda istinad

edilir. Ancaq dildə poetik ənənələrin tarixi bir proses təşkil etdiyini nəzərə alaraq müvafiq qaydada diaxronik istiqamətdəki nümunələrə də müraciət olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

Müdafiəyə çıxarılan əsas müddəalar bunlardan ibrətdir:

–Dil sistemi yalnız icbari informasiyaların çatdırılmasına yox, həm də semantik çalarlığa malik obrazlı anlayışların ifadəsinə xidmət edir.

– Dilin semantik ifadə funksiyasının tədqiqi müasir dilçilikdə ekspressiv-üslubi qrammatikanın yaradılmasına yol açır.

– Dilin semantik funksionallığının və ekspressiv-üslubi mühitinin formalaşmasında ritmik ardıcıllıq, ritorika (pafos) və emosionallıq mühüm yerlərdən birini tutur.

– Dildə ritmiklik, ritorika (pafos) və ekspressivlik ümumi halda obrazlılığa xidmət etməklə onların hər birinin funksionallığı özünəməxsus vasitələrlə ifadə olunur.

– Dilin kommunikativ informasiya sistemi əsasında icbari qaydaları tənzim edən formal, normativ qrammatikalar yaradıldığı kimi, ekspressiv informasiyaların ifadə formaları əsasında intensional tipli qrammatikaların yaradılması müasir dövrün tələblərinə çevrilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi onun ümumi morfoloji vasitələrin normativ qrammatikaların tərkib elementi olmaqla yanaşı, nitq aktuallaşması ilə səciyyələnən bədii informasiyaya xidmət etməsi barədəki fikirlərin irəli sürülməsi ilə bağlıdır. Bu istiqamətli tədqiqatların sistemləşdirilməsi ilə Azərbaycan dilinin poetik qrammatikasının yaradılması dilçiliyimizdə yeni bir istiqamət kimi nəzərə alına bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın nəzəri əhəmiyyəti dil informasiyalarının tələblərinə uyğun olaraq yeni istiqamətli qrammatikaların yaradılmasına nail olmaqdan ibarətdir. Bu tipli qrammatikaların yaradılması dilçiliyin ənənəvi tədqiqatlarını inkar etmir, əksinə, onun təhlili bazasında yeni bir metodologiya yaradılmasını şərtləndirir. İşin praktik əhəmiyyəti müasir dövrdə informasiyaların daha canlı, dolğun, cəlbedici, inandırıcı şəkildə çatdırılmasına xidmət edən şifahi dil üslubunun zənginliklərinin mənimsənilməsindən və mənimsədilməsindən ibarətdir. Şifahi dil

üslubunun zənginləşdirilməsində isə ritmikliyə, ritorikaya (pafosa) və emosionallığa söykənən poetikliyin xüsusi rolu və əhəmiyyəti vardır.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmununa aid hazırlanan məqalələr Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olan jurnal və məcmuələrdə çap edilmişdir. İşin ümumi məzmunu kafedrada fəaliyyət göstərən seminarlarda müzakirə olunmuş, eyni zamanda, mövzu ilə əlaqədar respublika və beynəlxalq səviyyəli elmi konfranslarda çıxışlar edilmişdir. Dissertasiya işinin ümumi məzmunu linqvistik poetikanın tədrisi prosesində tətbiq oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç (3) fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş 6 səhifə, I fəsil 48 səhfə, II fəsil 44 səhfə, III fəsil 31 səhfə, nəticə 4 səhifə, ədəbiyyat 10 səhifə. Dissertasiya işi ümumilikdə 136 səhifə, 224 954 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsədi və vəzifələri, tədqiqatın metodları, obyekti və predmeti, əsas mənbələri, elmi yeniliyi, müdafiəyə çıxarılan əsas müddəalar, işin elmi-nəzəri və praktik əhəmiyyəti, mövzunun işlənmə dərəcəsi, aprobasiyası və quruluşu barədə müxtəsər məlumat verilir.

**Dissertasiyanın birinci fəsli "Ad kateqoriyalarına məxsus morfoloji elementlərin poetikası" adlanır**. Bu fəslə aid əsas müddəalar aşağıdakı yarımfəsillərdə izah edilir:

**1.1. Linqvistik vasitələrin ekstralinqvistik və linqvistik mənbələri**

Bu yarımfəsildə göstərilir ki, Azərbaycan filologiyasında linqvistik poetika məsələləri ilə bağlı bir sıra tədqiqat işləri aparılmışdır. Aparılan tədqiqatlarda müşahidə olunan əsas təəssürat bundan ibarətdir ki, bədii mətnin poetikası indiyədək həm

ədəbiyyatşünaslıq və həm də dilçilik istiqamətlərində təhlil edilmişdir. Buradan belə nəticəyə gəlmək olur ki, poetizm məsələsi filologiyada ədəbiyyatşünaslıqla dilçiliyin qovşağında baş verən bir tədqiqat sahəsidir. Lakin poetizm məsələlərinin tədqiqi və təhlili təcrübəsinə aid materialları araşdırdıqda belə bir mənzərə ilə qarşılaşmaq olur ki, poetika təkcə dilçilik və ədəbiyyatşünaslığın obyekti deyildir. Burada, eyni zamanda, milli mentallığın, etnokulturologiyanın, o cümlədən intensionallığın payı vardır. Məhz poetizm məsələlərinə həsr olunmuş tədqiqatlarda da bu kimi məsələlərə diqqət yetirilir və münasibət bildirilir[10].

Poetizm filologiyanın elə bir sahəsidir ki, onu təkcə poeziya mətnləri ilə məhdudlaşdırmaq mümkün deyildir. Poetizm etnomədəni psixologizm təməlində baş verən emosional təsirlərin yaratdığı ritmlə, ahəngdarlıqla, ardıcıllıqla müşayiət edilən ritorika və pafosla təcəssüm olunur. Odur ki, poetizmin bariz nümunələrinə həm improvizasiya xarakterli danışıq dilində, şifahi dildə, həmçinin nəsr və nəzm dilində rast gəlmək olur. Poetizmin linqvistik mənbələri dil vasitələrindən ibarətdir. Poetizm fonetik, leksik, qrammatik vasitələrlə ifadə olunmaqla üslubiyyat, nitq mədəniyyəti və semasiologiya kimi sahələrlə də həmhüdud xarakterə malikdir. Poetik təəssüratlar, bir qayda olaraq, dil elementlərinin ardıcıllığı, paralelliyi və təkrarlığı ilə canlandırılır.

Bədii təkrar vasitəsi ilə yazıçı oxucunun diqqətini ən mühüm olan hadisəyə, xarakterə, zamana, məkana və s. yönəldir.

Təkrarlarla bağlı aparılan təhlillərdə doğru olaraq onların daha çox xalq dilinə, daha dəqiq deyilsə, danışıq dili üslubuna xas olması barədəki fikir və mülahizələrə üstünlük verilir. Bu fikrin həqiqəti ondadır ki, emosional təsirə malik olan qədim dil ənənələrinə aid vasitələr etnik mədəniyyət nümunələrini özündə daha çox qoruyan və mühafizə edən məişət xarakterli danışıq dili üçün səciyyəvi olur. Odur ki, əsas etibarilə mükaliməsi danışıq dili təməlində qurulan şifahi xalq ədəbiyyatı nümunələrində, xüsusən də nağıl və

---

[10] Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – s. 118.

dastanlarda emosional təsir yaratmaq məqsədilə təkrarlıq elementlərindən istifadəyə tez-tez müraciət edilir.

Müasir Azərbaycan dilindəki ritorizm elementləri ümumtürk kontekstində formalaşmış qədim və zəngin ənənələrə malikdir. Bu mənada qədim türk yazılı abidələrindəki həmin ifadəlilik elementlərinin parlaq nümunələrinin işlədilməsi heç də təsadüfi deyildir. Türk xalqlarının qədim yazılı abidələri olan Orxon-Yenisey kitabələri bədii mətn kimi yox, daşlar üzərində epitafi kimi həkk olunmasına baxmayaraq, həmin abidələrin hər cümləsində poetizmin zəngin ənənələrinin mövcud olduğunu müşahidə etmək mümkündür.

## 1.2. Kəmiyyət şəkilçilərinin poetikası

Azərbaycan dilində kəmiyyətin ifadə vasitələri çoxdur. Kəmiyyət həm fonetik, həm leksik, həm də morfoloji və sintaktik vasitələrlə ifadə olunur. Qrammatik kəmiyyət bildirən *-lar* (*-lər*) şəkilçisi dildə ümumi cəmlik bildirmək üçün, demək olar ki, bütün qrammatik paradiqmalarda işlənir. Bu şəkilçinin özünəməxsus sistemi və taksonomik xarakteri olmadığı üçün onun özünün də paradiqması yoxdur. Morfoloji ifadə vasitəsi kimi kəmiyyət anlayışında *-lar* (-lər) şəkilçisi mühüm rol oynayır. Bu da *-lar* (-lər) kəmiyyət şəkilçisinin işlənmə əhatəsinin geniş olması ilə təsbit edilir. *-Lar* (-lər) kəmiyyət şəkilçisinin kəmiyyət bildirmə funksiyası mənsubiyyət, xəbərlik, zaman, şəxs və feil şəkillərinin üçüncü şəxs cəmində müşahidə edilir. *-Lar* (-lər) kəmiyyət şəkilçisi mətndə ardıcıl (həmcins), paralel və təkrar komponentlərlə işlədildikdə pafosla, ritorizmlə müşayiət edilən ritm və ahəngdarlıq baş verməsinə səbəb olur. Bununla da *-lar* (-lər) kəmiyyət şəkilçisinin iştirakı sayəsində canlı bir poetik mənzərə yaradılır. Azərbaycan dilçiliyində morfoloji elementlərin, o cümlədən kəmiyyətin bariz ifadə vasitəsi olan *-lar* (-lər) şəkilçisinin üslubi rəngarənglik, yəni poetizm yaratması barədə ilk dəfə Ə.Dəmirçizadənin üslubiyyata həsr edilən kitabında rast gəlmək olur. O, cümlə tərkibində təkrar-təkrar işlənən sözlərə eyni şəkilçinin qoşulmasını sinonim yaratma funksiyası ilə əlaqələndirir. Bununla yanaşı, Ə.Dəmirçizadə *-lar* (-lər) şəkilçisinin *qaralar, qırmızılar, sizlər*, *bizlər* kimi sözlərdə emosionallıq bildirdiyini də göstərir.

-*Lar* (-lər) kəmiyyət şəkilçisinin vasitəsilə poetizm yaradılmasını aşağıdakı nümunələrdə müşahidə etmək olur: "*Paris nə Paris! Yer üzünün cənnəti desəm yenə xəta elməmişəm.* Nə *küçələr*, nə *bazarlar*, nə *mehmanxanalar*, nə teatrlar, nə *kafeşantanlar"* [11] *Tel-tel olsun qərənfillər, yasəmənlər; Yaşıl geysin göy dənizlər, göy çəmənlər"*[12]

### 1.3.Mənsubiyyət şəkilçilərinin poetikası

Mənsubiyyət şəkilçilərinin vasitəsilə poetik vüsət yaradılmasında, xüsusən təkrar işlənən həmcins üzvlər və paralel komponentlər mühüm rol oynayır. Mənsubiyyət şəkilçiləri həmin tərkiblərə qoşulmaqla cümlədə həm emosionallıq yaradır, həm də ritmik ahəngdarlıq baş verməsini təmin edir. Cümlələrdəki ritmiklik, ahəngdarlıq, ardıcıl sıralanma eyni zamanda, ritorizmlə müşayiət olunur ki, bu da cümlənin informasiya funksiyasını intensivləşdirir və ona poetik rəngarənglik verir. Mənsubiyyət şəkilçilərinin qrammatik funksiyası dil elementləri arasında mənsub əşya münasibətini bildirməkdən ibarətdir. Qrammatik funksiya mənsubiyyət şəkilçilərinə məxsus olan nominasiyadan ibarətdir. Mənsubiyyət şəkilçiləri, eyni zamanda, bədii mətndə ardıcıl, təkrar və paralel komponentlərdə iştirak etməklə ritorik və pafoslu emosiyaları canlandırır. Mənsubiyyət şəkilçilərinin mətndə işlədilməsi ilə üslubi rəngarəngliklə yanaşı, obrazlılıqla, emosionallıqla və ritorizmlə səciyyələnən poetiklik yaratması xüsusiyyətləri Ə.Dəmirçizadənin üslubiyyata dair əsərində də təqdir olunur[13]. Mənsubiyyət şəkilçilərinin poetizmini aşağıdakı nümunələrdə müşahidə etmək olur: "*Mənim də qapım çuval dolusu*

---

[11] Haqverdiyev, Ə. Seçilmiş əsərləri / tərt. ed. K.Məmmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1971. – S.549, – s.14

[12] Vurğun, S. Seçilmiş əsərləri: [5 cilddə] / S.Vurğun. – Bakı: Elm, – c. 1. – 1985. – S.250, – s.64.

[13] Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – 271 s.

*taxıl, evim təknə dolusu çörək görərdi*" [14] "*Qaçaqların arasındabaşı əmmaməlisi vardı, çiynində tüfəngi, belində xəncəri, altında atı*" [15]

## 1.4. Hal şəkilçilərinin poetikası

Hal şəkilçilərinin poetiklik yaratma xüsusiyyəti cəm və mənsubiyyət şəkilçilərində olduğu kimi, paralel, ardıcıl və təkrar komponentlərdə onların işlənmə keyfiyyəti ilə bağlıdır. Hal şəkilçilərinin hər biri bədii mətnlərdə özlərinin qrammatik funksiyalarına uyğun məna və anlayışların intensivləşdirilməsi əsasında poetik vüsət yaradır. Hal şəkilçilərinin mətndə işlədilmə keyfiyyətləri üzrə üslubi çalarlıq, ritorizm, pafos və poetiklik yaratması məsələləri xüsusilə nitq mədəniyyətinə həsr olunmuş əsərlərdə təqdir edilir.[16] Hal şəkilçilərinin emosionallıq təməlində pafos və ritorizmilə müşayiət olunması ilə poetik ritm və ahəngdarlıq yaratmasını aşağıdakı nümunələrdə müşahidə etmək mümkündür: "*Mən ölüm, Molla, bizim Xankişinin qanına bax*; *Evinə, mənzilinə, mülkünə, eyvanına bax!*"[17] "*Tutdum yenə xoş həng ilə meyxanəm, meyxanəm*"; "*Saqi, amandır, durma ver peymanəni, peymanəni*". [18]

## 1.5. Xəbərlik şəkilçilərinin poetikası

Xəbərlik şəkilçilərinin qrammatik funksiyası morfologiyaya aid mənbələrdə göstərildiyi kimi, adlarla bağlı hadisə, hökm və hal-vəziyyətin bildirilməsindən ibarətdir, hərçənd xəbərlik və şəxs şəkilçiləri adı ilə təqdim edilən şəkilçilərdə ciddi və prinsipial fərqlər mövcud deyildir[19] Xəbərlik şəkilçilərinin poetik vüsət yaratması

---

[14] Mir Cəlal. Seçilmiş əsərləri: [3 kitab] / tərt. ed. N.A.Paşayeva, T.M.Mütəllimov, – Bakı: Çaşıoğlu, – k. 2. – 2008. – S.308, – s.16.

[15] Rövşən, R. Nəfəs. Kitablar kitabı / R.Rövşən. – Bakı: Qanun, – 2006. – S.760, – s.226.

16.Hüseynzadə, M. Müasir Azərbaycan dili: [4 hissədə]: Morfologiya / M.Hüseynzadə. – Bakı: Şərq-Qərb, – h. 3. – 2007. – s.58; Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası: [2 hissədə] / B.Xəlilov. – Bakı: Nurlan, – h. 1. – 2007. – c.216-226.

[17] Sabir, M.Ə. Hophopnamə: [2 clddə] / tərt. ed. M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 1. – 2004. – S.480, . –s.238

[18] Nəbati, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Nəbati. – Bakı: Şərq-Qərb, – 2004. – S.216 , – s.36.

[19] Azərbaycan dilinin qrammatikası: [2 hissədə] / – Bakı: Azərbaycan EA nəşri, – h. 1. – 1951. – s.188

onların qrammatik funksiyası bazasına əsaslanır. Belə ki, xəbərlik şəkilçiləri mətndə ardıcıl, davamlı, təkrar işlədilməsi ilə xəbər bildirməyə aid bədii informasiyaları intensivləşdirir və poetik vüsət yaradır. Aşağıdakı nümunələrdə bunun əyani təsdiqini müşahidə etmək olar: "*Edəmən təkr Füzuli, səri-kuyin yarın*; *Vətənimdir, vətənimdir, vətənimdir, vətənim*"[20] "*Eylə məstəm bilməzəm kim, mey nədir, mina nədir? Gül nədir, bülbül nədir, sünbül nədir, səhra nədir?*" [21]

Bədii mətnlərdə xəbərlik şəkilçilərinin üslubi poetik xüsusiyyətləri həm ardıcıl işlənən həmcins üzvlərin tərkibində, həm də paralel konstruksiyalarda təcəssüm olunur. Həm ardıcıl işlənən həmcins üzvlərdə və həm də paralel tərkiblərdə xəbərlik şəkilçilərinin tam şəkildə işlənməsi məzmunca konkretlik, dəqiqlik və bütövlük anlayışı yaradır. Həmcins üzv kimi ardıcıl işlənən üzvlərdə xəbərlik şəkilçisinin təkrar-təkrar işlədilməsi ilə yaradılan qrammatik konkretliklə poetik ahəngdarlıq cümlə daxilində bir-birini tamamlayır, oxucu təsəvvüründə əşya, hadisə və obyekt barədə psixoloji dəqiqlik, bitkinlik, əhvali-ruhiyyəsi canlandırılır.

**Dissertasiyanın ikinci fəsli "Feil kateqoriyalarına məxsus morfoloji elementlərin poetikası" adlanır**. Bu fəslə aid əsas müddəalar aşağıdakı yarımfəsillərdə izah olunur:

**2.1. İnkarlıq şəkilçisinin poetikası**

Azərbaycan dilində feili qrammatik inkarlıq -*ma* (-*mə*) şəkilçisi ilə ifadə olunur. İnkarlıq özü isə məntiqi bir paradiqma kimi bütün dillərdə mövcuddur. İnsanların mücərrəd təfəkkürü inkişaf etdikcə onlarda təsdiq və inkarlıq təsəvvürü də formalaşmağa başlamışdır. İnkarlığın morfoloji əlaməti olan -*ma* (-mə) şəkilçisi müstəqil olaraq bütün şəxslər üzrə inkarlıq bildirmə məqamında işlənə bilmir. İnkarlıq şəkilçisi əmr formasının ikinci şəxsinin təkində və digər feil kateqoriyalarında üçüncü şəxsin təkinə aid müstəqil inkarlıq bildirə bilir. Qalan şəxslərdə inkarlıq şəkilçisinin inkarlıq funksiyası zaman

---

[20] Füzuli, M. Əsərləri: [6 cilddə] / tərt. ed. H.Araslı. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – 400 s.

[21] Nəbati, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Nəbati. – Bakı: Şərq-Qərb, – 2004. – S.216 , – s.63.

və şəxs şəkilçiləri ilə birlikdə yerinə yetirilir. İnkarlıq şəkilçisinin qrammatik mənası baş verən hadisəyə, situasiyaya dair əkslik, ziddiyyət, qarşıdurma anlayışı bildirməkdən ibarətdir. İnkarlıq şəkilçilərinin poetik xüsusiyyətləri də onun qrammatik anlayışının intensivləşdirilməsi ilə bağlıdır. İnkarlıq şəkilçisinin poetizmi onların paralel, ardıcıl və təkrar komponentlərdə işlənmə keyfiyyəti ilə müəyyən edilir. İnkarlıq şəkilçisinin vasitəsilə bədii informasiyaların intensivləşdirərək poetik təəssürat yaratmasını aşağıdakı nümunələrdən görmək mümkündür: "*Küçədə tullan, ey oğul sənətin olmur olmasın*; *Sənətə, dərsə, məktəbə rəğbətin olmur, olmasın*" [22] "*Qaydanlar qayıtdılar. Qayıtmayanlar qayıtmadı, camaat da yavaş-yavaş başladı inanmağa ki, bu qayıtmayanlar deyəsən heç bir də qayıtmayacaqlar*" [23]

## 2.2. Feilin zaman və şəxs kateqoriyalarında ardıcıllıq və funksionallıq problemləri

Bu yarımfəsildə göstərilir ki, feilin zamanları ilə əlaqədar XX əsrin 50-ci illərinə kimi dilçilikdə yekdil fikir olmamışdır. Öz zamanında Məhəmmədbəy Əfşar, Nəriman Nərimanov, Bəkir Çobanzadə, Fərhad Ağazadə, İdris Həsənov, Səlim Cəfərov, Əbdüləzəl Dəmirçizadə kimi gökrəmli şəxsiyyətlər feil zamanları ilə əlaqədar bir-birindən fərqli fikir və mülahizələr irəli sürmüşlər. Hələ onu demək kifayətdir ki, 1951-ci ildə nəşr olunmuş "Azərbaycan dilinin qrammatikası" kitabında feilin 12 zaman forması göstərilmişdir[24]. Ancaq Muxtar Hüseynzadənin 1954-cü ildə çap etdirdiyi "Müasir Azərbaycan dili" kitabında verdiyi üç zaman və onun beş ifadə forması ilə zamanlar barədəki mübahisələrə yekun vuruldu.[25] Ancaq zamanlar haqqında sonralar da tədqiqat işləri aparılmış olsa da, bu sahədə bütün problemlərin başa çatdığını

---

[22] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / tərt. ed. M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 1. – 2004. – S.480, . –s.55

[23]Rövşən, R. Nəfəs. Kitablar kitabı / R.Rövşən. – Bakı: Qanun, – 2006. – S.760, – s.468

[24] Azərbaycan dilinin qrammatikası: [2 hissədə] / – Bakı: Azərbaycan EA nəşri, – h. 1. – 1951. – s.188

[25] Hüseynzadə, M. Müasir Azərbaycan dili / M.Hüseynzadə. – Bakı: ADU, – 1954. – 242 s.

söyləmək olmaz. Feil zamanları müstəqil olaraq paradiqmatik əlaqə yarada bilmir. Ancaq üçüncü şəxsin təkində zaman şəkilçiləri müstəqil işlənir. Zaman şəkilçilərinin paradiqmatik əlaqəsi şəxs şəkilçilərinin hesabına baş verir. Onların bədii mətndə emosionallıq bildirməklə poetik ritm və ahəngdarlıq, pafos və ritorizm yaratması da məhz şəxs şəkilçilərinin iştirakı ilə başa gələn paradiqmatik əlaqə sayəsində mümkün olur. Feil zamanlarının özü də ifadə etdiyi qrammatik funksiyaya görə iki qismə ayrılır. Onların birincisi nominativ, ikincisi isə modal zaman anlayışından ibarətdir.

### 2.3. Feilin nominativ zaman və şəxs şəkilçiləri ardıcıllığının poetizmi

Feilin nominativ zamanları qrupuna şühudi keçmiş, nəqli keçmiş, indiki zaman, qəti gələcək zaman və qeyri-qəti gələcək zaman formaları daxildir. Feilin nominativ zaman formaları hər bir zamanın özünəməxsus anlayışları ilə səciyyələnir. Şühudi keçmişdə keçmişə aid hadisənin qətiyyətliliyi, nəqli keçmişdə təsviriliyi, indiki zamanda davamlılığı, qəti gələcəkdə konkretliyi, qeyri-qəti gələcəkdə neytrallığı bildirilir. Zamanların şəxs şəkilçiləri ilə işlənməsində baş verən poetiklikdə də şəxsə aid həmin anlayışlar bədii informativliklə səciyyələnir. Zaman və şəxs şəkilçilərinin ardıcıllığında baş verən poetik xüsusiyyətləri aşağıdakı nümunələrdə müşahidə etmək mümkündür:

a) şühudi keçmiş və şəxs şəkilçiləri ardıcıllığı ilə: "*Oğrun baxa-baxa ey çeşmi-nərgiz; Dərdə saldın məni xəstəhal etdin; Həsrətindən öldüm, öldüm, dirildim; Nə bir yada saldın, nə sual etdin*" [26] "*Kef məclisi başlandı. Aşıq Cünun ortaya girdi. Yedilər, içdilər, çaldılar, oynadılar*"[27]

b) nəqli keçmiş və şəxs şəkilçiləri ardıcıllığı ilə: "*Bir gün Qamğan oğlu xan Bayındır yerindən durmuşdu. Şamı günlüyü yer üzünə dikdirmişdi. Ala seyvan göy yüzünə aşanmışdı*" [28]."*Yar hali-*

---

[26] Vaqif, M.P. Əsərləri / tərt. ed. H.Araslı. – Bakı: Şərq-Qərb, – 2004. – S.264. – s.90

[27] Koroğlu / – Bakı: Azərb. SSR EA, – 1959. – S. 508 , – 24.

[28] Kitabi-Dədə Qorqud / – Bakı: Öndər, – 2004. – S.376, –s. 35.

*dilim zar bilibdir, bilirəm; Dili-zarımda nə kim var, bilibdir, bilirəm*"[29]

c) indiki zaman və şəxs şəkilçilərinin ardıcıllığı ilə: "*Neyləyim, axır bu yox olmuşların; Fikrini qan-qan görürəm, qorxuram; Qorxuram, qorxuram, qorxuram*"[30] "*Bulaqlar qayır-qayır qaynayır, ürəklər oyur-oyur oynayırdı*"[31]

ç) qəti gələcək zaman və şəxs şəkilçilərinin ardıcıllığı ilə: "*İnşallah kəşf edəcəyəm, bu məsələni kəşf edəcəyəm, lap asan vəchlə kəşf edəcəyəm*"[32]."*Bu ilin üzümü heç! Bu ilin üzümü getdi. Quşlar dənləcəyək, uşaqlar talayacaq, mürəbbəsi bişməyəcək, çaxırı çəkilməyəcək*"[33]

d) qeyri-qəti gələcək zaman və şəxs şəkilçilərinin ardıcıllığı ilə: "*Bunlar bir-birlərini elə çox istəyirdilər ki, cüt gedərdilər, cüt gələrdilər, cüt də gəzərdilər*"[34],"Olur rüxsarına gün lənə gülbərgi-tər aşiq; Sənə əksik deyil, göydən *yağar*, yerdən *bitər* aşiq"[35] .

## 2.4. Modal qrammatik zaman və şəxs şəkilçilərinin ardıcıllığının poetizmi

Modal zamanlar qrupuna vacib, lazım, arzu, şərt və əmr formaları daxildir. Vacib, lazım, arzu və şərt modal zamanları nisbi gələcək zamanı, əmr forması ilə indiki konkret zamanı bildirir. Modal qrammatik zamanların poetizm yaratmasında nominativ zamanlara nisbətən məhdudiyyət vardır. Bu məhdudiyyət daha çox

---

[29] Füzuli, M. Əsərləri: [6 cilddə] / tərt. ed. H.Araslı. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – S.400, – s.225.

[30] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / tərt. ed. M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 1. – 2004. – S.480, . –s.126.

[31] Koroğlu / – Bakı: Azərb. SSR EA, – 1959. – S.508, – s.58.

[32] Məmmədquluzadə, C. Hekayələr / C.Məmmədquluzadə. – Bakı: Əli və Nino; Qanun, – S.232 , – 58 .

[33] Rövşən, R. Nəfəs. Kitablar kitabı / R.Rövşən. – Bakı: Qanun, – 2006. – S.760, – s.578

[34] Azərbaycan nağılları: [5 cilddə] / – Bakı: Şərq-Qərb, – c.1. – 2005. – S.360, – s.94.

[35] Füzuli, M. Əsərləri: [6 cilddə] / tərt. ed. H.Araslı. – Bakı: Şərq-Qərb, – c. 2. 2005. – 336 s.

vacib, lazım, arzu və şərt formalarının nisbi zaman anlayışı bildirməsi ilə bağlıdır. Əmr formasına konkret zaman mənası bildirdiyi üçün bu zamana məxsus poetiklik digərləri ilə müqayisədə nisbi üstünlüyə malikdir. Nisbi gələcək zaman bildirən modal zamanlar içərisində emosionallıq səviyyəsi arzu və şərt forması vacib və lazım formalarına nisbətən daha intensivdir. Vacib və lazım formalarında şəxslər üzrə təkrarlığa meyillilik zəif olduğundan onların poetizmində də nisbi məhdudiyyət müşahidə edilir. Modal qrammatik zamanların iştirakı ilə ritm, ahəngdarlıq, pafos və emosional vüsət yaradılmasını aşağıdakı nümunələrdən görmək mümkündür:

a) vacib formasında: "*Bu yerlərin üç yolu var, üçü də balam getməli; Biri eniş, biri yoxuş, biri düz; Eniş sənin, yoxuş mənim, düz mənim; Bilirəm, gəlməlisən, gəlməli; Ayda bir yol həftədə bir yol gəlməlisən, gəlməli*"[36]

b) lazım formasında: "*Xəbərə getsəm də buradan Çənlibelə azı bir həftəlik yoldu. Mən gedəsi, xəbər verəsi, Koroğlu gələsi, yəqin ki, onları öldürərlər*" [37]

c) arzu formasında: "*Gərək dava eləyəm, qoşun qıram, qan tökəm, paşa öldürəm, səni elə aparam*"

ç) şərt formasında: "*Mən nə onun qılıncından qorxuram, nə şeşpərindən, nə də dəlilərindən. Qorxsam, qorxsam bəlkə o nərədən qorxam*"

**Dissertasiyanın üçüncü fəsli "Köməkçi nitq hissələri elementlərinin poetikası" adlanır**. Bu fəslə aid əsas müddəalar aşağıdakı yarımfəsillərdə şərh olunur:

**3.1. Köməkçi nitq hissələrinin qrammatik və mətni funksionallığı**

Bu yarımfəsildə köməkçi nitq hissələrinin qrammatikliyi ilə yanaşı, mətni xüsusiyyətlərindən bəhs edilir. Burada göstərilir ki, Azərbaycan dilinin morfoloji quruluşu barədə çoxsaylı əsərlərin mövcud olmasına baxmayaraq, köməkçi nitq hissələrinin statusu haqqında yekdil fikir formalaşmamışdır. Köməkçi nitq hissələri

---

[37]Koroğlu / tərt. ed. İ.Abbaslı, B.Abdulla. – Bakı: Lider, – 2005. – 552 s.

tərkibinə imperativ sözlər, təqlidi sözlər, uşaq sözləri və ritmik sözlər də daxil edilir[38]. Burada isə köməkçi nitq hissələrinin ənənəvi qruplaşdırılmasına aid olan *qoşma, bağlayıcı, ədat, modal* sözlər və *nidaların* vasitəsilə baş verən poetik xüsusiyyətlərdən bəhs olunur. Mövcud ədəbiyyatda göstərildiyi kimi, qoşma və bağlayıcılar birbaşa dil komponentlərinin əlaqələndiriciliyi ilə xidmət edir. Bu cəhətdən də onlar şəkilçilər kimi qrammatik funksiya daşıyır. Ədat, modal söz

və nidalar isə cümlədə hər hansı mənanın qüvvətləndirilməsinə, danışanın fikrə münasibət bildirməsinə və emosiyaların canlandırılmasına xidmət edir. [39]

Köməkçi nitq hissələrindən qoşma və bağlayıcıların qrammatikliyi birbaşa bağlılıq yaratmaq olduğu kimi, ədat, modal söz və nidalar da xüsusi, müstəqil məna daşımamaqla dil komponentlərini cümlədaxili semantik mühitə görə bir-biri ilə bağlayır. Ədatlar xüsusi məna bildirməsinə görə, modal sözlər danışanın fikrə münasibətinə görə, nidalar isə cümlədaxili emosionallığa görə.

Kömək nitq hissələrinin poetizmi də məhz onların qrammatik-nominativ və qrammatik-semantik əlaqəsi çərçivəsindəki anlayışlara əsaslanır.

## 3.2. Bağlayıcıların poetikası

Bağlayıcılar dilçilik ədəbiyyatında göstərildiyi kimi, özlərinin qrammatik funksiyası üzrə tabesizlik və tabelilik növlərinə bölünür. Bağlayıcıların qrammatik funksiyası dilin struktur ardıcıllıq prinsipinə əsaslanan normalara müvafiq şəkildə özünü göstərir. Bağlayıcıların poetik xüsusiyyətlərinin təməli isə emosionallığa, ritm və ahəngdarlığa əsaslanan şifahi danışıqla bağlıdır ki, bədii mətnlərdə də həmin ənənə müxtəlif rəgarəng boyalarla davam etdirilir, situasiyanın, hadisənin və bədii obrazın səciyyələndirilməsinə xidmət edir. Bağlayıcılar dil komponentlərini əsas etibarı ilə qrammatik-nominativ funksiyaya görə əlaqələndirir. Bununla yanaşı bağlayıcıların əlaqəyaradıcılıq vəzifəsi daxili

---

[38] Hüseynzadə, M. Müasir Azərbaycan dili: [4 hissədə]: Morfologiya / Hüseynzadə, M. – Bakı: Şərq-Qərb, – h. 3. – 2007. – s.245, – 246, – 275;
[39] İsmayıloğlu, C. Köməkçi nitq hissələri: [Elektron resurs]. URL: www.cahid.info/arehives/1317.

anlayışın ifadəsinə uyğun qaydada baş verir. Belə ki, bağlayıcılar dil komponentlərini bölüşdürücülüyə, inkarlığa, birləşdiriciliyə, iştiraka, aydınlaşdırıcılığa və s. xüsusiyyətlərə görə əlaqələndirir. Yəni bağlayıcılar köməkçi nitq hissəsi kimi dil komponentlərini xalis qrammatikliyə görə yox, həm də ümumi anlayış kontekstinə görə bağlayır. Onların paralel, ardıcıl, təkrar komponentlərdə işlənərək poetik vüsət yaratmasında da cümlədaxili anlayışın intensivləşdirilməsi əsas rol oynayır. Bağlayıcıların iştirakı ilə baş verən poetikliyi aşağıdakı nümunələrdə müşahidə etmək olar:

"*Gah yazır, gah oxuyur, gah danışır; Gündə bir hərzə kitabnan tanışır*"[40], "*Nə şərabiyəm, nə bəngi; Nə müğənniyəm, nə cəngi; Nə xəyaliyəm, nə rəngi; Hələ ləng, ləng, ləngəm*" [41] ," Allaha şükür, *həmi* pulun var, *həmi* dövlətin var, *həmi* cavansan" [42]

### 3.3. Qoşmaların poetikası

Qoşmalar da bağlayıcılar kimi dil komponentlərini onların daxili ümumi anlayışı kontekstində əlaqələndirir. Qoşmaların qrammatikliyi də cümlədaxili ümumi semantika ilə vəhdət təşkil edir. Qoşmaların poetikliyi həmin anlayışların bədii informasiyaya çevrilməsi ilə səciyyələnir: "*Dəlilər, xanımlar Koroğlunun elə Qırata sıçramasını gördülər. Qırat yel kimi əsdi, quş kimi uçdu*"[43]; "*Həsən kişi ha gözlədi, kəhər atdan məktub gəlmədi. Sonra Əfrayılın qara kağızı gəldi. Sonra İsmayılın qara kağızı gəldi. Sonra İsrəfilin qara kağızı gəldi*"[44] . *Söylə görüm, bir mənə; Cib doludurmu pul ilən?; Gəl sənə mən qız verim; Nə işin vardır dul ilən*"[45]. Köməkçi nitq hissələrindən biri kimi qoşmaların da özünəməxsus qrammatik funksiyası və poetik vüsət yaratmaq imkanları vardır. Qoşmalar da bağlayıcılar kimi cümlə üzvləri arasında qrammatik əlaqə yaradılmasına xidmət edir. Qoşmalar əsas etibarilə qoşulduğu sözlə

---

[40] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / tərt. ed. M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 1. – 2004. – S.480,- s. 228

[41] Nəbati, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Nəbati. – Bakı: Şərq-Qərb, – 2004. – S.216, - s.171.

[42] Hacıbəyli, Ü. Seçilmiş əsərləri:s.291-292

[43] Koroğlu / tərt. ed. İ.Abbaslı, B.Abdulla. – Bakı: Lider, – 2005. –S. 552,- s.123

[44] Rövşən, R. Nəfəs. Kitablar kitabı.- s.463

[45] Hacıbəyli, Ü. Seçilmiş əsərləri:- s.253.

birgə işlədilməsə də, onların müəyyən qismində şəkilçiləşməyə meyillilik müşahidə edilir. Lakin qoşmalar şəkilçi kimi söz tərkibində ardıcıl sıra üzrə işlənmir.

### 3.4. Ədatların poetikası

Ədatlar cümlədə müstəqil məna daşımayan, lakin cümlədə təsvir olunan əşya, hadisə, situasiya və bədii obraz barədə hər hansı əlavə məna çalarlığını ifadə edən köməkçi nitq hissələri qrupuna daxildir. Ədatlar nominativ mənalı cümlələrdə üslubi rəngarənglik yaradır, eyni zamanda, ritorizmi canlandırmaqla nominativ cümlələri poetikləşdirir, poetik nümunələri isə daha incə çalarlıqla cilalandırır.

Ədatlar cümlədaxili semantik mühiti özlərinin daxili mənaları əsasında canlandıraraq ecazkarlıq nümunəsinə çevirə bilir.

Ədatlar cümlə komponentlərini qüvvətləndiricilik, sual, əmr və digər anlayışlar üzrə əlaqələndirir. Ədatların ardıcıl, təkrar və paralel vasitələrlə işlənməsi sayəsində ritm, ahəngdarlıq, pafos və ritorika yaradılır. Bununla da bədii informasiya aktivləşir, intensivləşir və poetik vüsət baş verir: "*Səni gördüm bənd oldum; Elə bənd oldum, elə bənd oldum; Elə bənd oldum, dilbər!*" [46]. "*Bu kaftar nə danışırdı? Kosaoğlular nə fikir edirdilər? İndi Tükəzban xala ona nə cavab versin?*" [47]. Ədatların qrammatik funksiyası cümlənin bütün komponentlərini qüvvətləndiricilik, konkretləşdiricilik, dəqiqləşdiricilik, sual, əmr və digər çalarlıq üzrə əlaqələndirməkdən ibarətdir. Ədatların cümlə komponentlərində təkrarlıqla işlədilməsi sayəsində isə onların poetizmini səciyyələndirən üslubi rəngarənglik yaranır.

### 3.5. Modal sözlərin poetikası

Modal sözlər cümləni təşkil edən nitq vasitələrinə dair modallıq anlayışını canlandırır. Odur ki, modal sözlər də özlərinin ifadə etdiyi anlayış üzrə cümlədə universal xarakterli nitq vasitəsi kimi işlənir. Modal sözlərin qrammatik funksiyası da cümlə konstruksiyasını modallıq üzrə ümumi və universal qaydada əhatə etməsindən ibarətdir. Modal sözlər cümlə tərkibini danışanın fikrə

---

[46] Yenə orada , -s.303.

[47] Şıxlı, İ. Seçilmiş əsərləri: [2 cilddə] / tərt. ed. E.Şıxlı. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – S.408,- s.100.

münasibəti üzrə əlaqələndirir. Modal sözlərin poetizmi də onların gerçəkliyə, sıra və sadalanmaya, təəssüf, güman, şübhə kimi münasibətlər əsasındakı anlayışlar üzrə baş verir. Bunun əyani nümunəsini aşağıdakı misallarda görmək olar: "*Gərək gizlin qala, heç kəs gərək bu işdən xəbərdar olmaya*"[48]. "*[Müsyö Jordan]. Mən gedirəm, dayana bilmənəm. Heyf sənə, Parij, heyf sənə Tülyeri, heyf sənə gözəl paytaxt*" [49]. Modal sözlər də cümlə üzvlərini gerçəkliyə münasibət çalarlığı üzrə əlaqələndirməklə məntiqi və qrammatik səciyyə daşıyır.

### 3.6. Nidaların poetikası

Nidalar cümlə komponentlərini daxili hiss, həyəcan emosiyaları ilə əlaqələndirir. Onların təkrarlıqla işlədilməsində emosiyalar canlanır, ritm, ahəngdarlıq, pafos və ritorika baş verir. Bu da aşağıdakı nümunələrdə olduğu kimi poetik vüsət yaradır: "*Ax dədəm vay! Bu kimdir? Vay aman! Allah sən saxla!*" [50]; "[Tarıverdi]. *Ey vay, ayı! Ay Namaz! Ay Zalxa! Ay Pərzad! Evim yıxıldı. Ay haray, ay aman!*"[51]. Nidaların özünəməxsus hiss, həyəcan və digər emosional çalarlıqları bütün cümlə üzvlərinə şamil olur və onları bir-biri ilə bağlayan məntiqi-qrammatik vasitəyə çevrilir.

Dissertasiya işinin "**Nəticə**" hissəsində əldə olunan elmi qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Linqvistik vasitələr özlərində linqvistik elementlərlə yanaşı, poetik vüsət yaradan emosional çalarlıqları və rəngarəngliklər əhatə edir. Bədii mətnlərdə poetizmin canlanması üçün emosiyalar sadəcə hansısa daxili hissin qabarıqlaşdırılması ilə məhdudlaşıb qalmır. Bədii nümunələrdə informasiyaların intensivləşməsi və pafosluluğun canlandırılması təkcə poeziya dilinə xas olmayıb, həm də nəsr dilini, o cümlədən improvizasiya xarakterli nitqdən tutmuş adi danışıq dilini və rəsmi şifahi dili də əhatə edir. Poetik informasiyalar bədii mətnin

---

[48] Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / tərt. ed. İ.Həbibbəyli, – Bakı: Öndər, – c. 1. – 2004. – S. 664 ,-s.59.

[49] Axundzadə, M.F. Əsərləri: [3 cilddə] / M.Axundzadə. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – 296 s. , -s.66

[50] Yenə orada, - s. 82

[51] Yenə orada, - 85

oxunaqlığını artırır, nitqin obrazlaşdırıcı, yaddaqalan və təsirli olmasını təmin edir.

2. Poetik informasiyaların canlandırılması, ilk növbədə, linqvistik vasitələrin üzərinə düşür. Çünki dildə bütün informasiyalar ancaq linqvistik elementlər çərçivəsində baş verir. Lakin linqvistik elementlər anlayışların nominasiyası hüdudunda emosional təsirlərlə əhatə olunmur. Bədii informasiyaların canlandırılmasında bilavasitə ekstralinqvistik amillər mühüm rol oynayır. Bədii informasiyaların çatdırılması təkcə anlayışların intensivləşdirilməsindən ibarət olmayıb, həm də obrazlaşdırıcılığa xidmət edir.

3. Poetik informasiyalar özünün intensivləşməsi, axıcılığı, ritmikliyi və ahəngdarlığı ilə elə bir ritorizm yaradır ki, bunun nəticəsində şeir dili ilə nəsr dili arasındakı sərhəd, bir növ, aradan qaldırılır, bir-birinə yaxınlaşır. Türk xalqlarından biri kimi Azərbaycan xalqının qədim yazılı abidələrində, o cümlədən klassik nümunələrində müşahidə edilən güclü poetizm əlamətləri bu xalqın ictimai düşüncəsində emosiya ilə ifadə olunan incəliklərin zəngin ənənələrinin yaşadığını nümayiş etdirir.

4. Poetik informasiya məsələləri tədqiqatçıların diqqətini özünə daha çox cəlb etdiyindən bu sahənin araşdırılmasına həm ədəbiyyatşünaslıq, həm də linqvistik baxımından yanaşılmışdır. Ədəbiyyatşünaslıqda poetizm məsələləri daha çox ritmik ölçülər, ahəngdarlıq, ritorizm və pafosluluq əlamətləri əsasında təhlil edilir. Dilçilik poetikası isə poetizmin baş verməsində linqvistik elementlərin iştirakı ilə izah edilir. Fakt budur ki, bütün informasiyalar kimi bədii, poetik informasiyalar fonetik, leksik və qrammatik vasitələrlə ifadə olunur. Dil elementlərinin poetik informasiya vasitəsinə çevrilməsi onların bədii mətnlərdə və nitqdə işlədilməsi üsulları ilə bağlı olmuşdur.

5. Linqvistik poetikanın bir tərkib hissəsi kimi, morfoloji poetikanın obyekti morfoloji elementlərdən ibarətdir. Dilçilik tədqiqatlarında morfoloji elementlərin bədii informatika xüsusiyyətlərindən üslubi vasitələr çərçivəsində bəhs edilmişdir. Ancaq qrammatik elementlərin poetik informasiya mühitinin açılmasında və bu barədə geniş mənzərə yaradılmasında kompleks təhlil aparılması dilin intensionallıq təbiətinin araşdırılması üçün

mühüm rol oynayır. İntensionallıq dildə nominasiyaları deyil, əlavə, obrazlaşdırıcı ekstralinqvistik vasitələrin mənzərəsini özündə əks etdirir.

6. Morfoloji vasitələrin poetik xüsusiyyətləri hər bir kateqoriya elementinin, o cümlədən qrammatik əlaqə yaradan köməkçi nitq hissələrində özünəməxsus bədii informasiya yaratması ilə səciyyələnir. Bu mənada *-lar* (-lər) kəmiyyət şəkilçisinin geniş poetizm yaratmaq imkanları vardır. *-Lar* (-lər) kəmiyyət şəkilçisi başqa qrammatik şəkilçilərdən fərqli olaraq digər qrammatik paradiqmalarda (məsələn, mənsubiyyət, xəbərlik, zaman, şəxs, feil şəkilləri) da işlənir. Kəmiyyət şəkilçisinin poetik təbiətinə obrazların əzəmətliliyinin, məğrurluğunun, mənəvi keyfiyyətlərinin, o cümlədən naqisliyinin və s. xarakterizə edilməsi xüsusiyyətləri daxildir.

7. Mənsubiyyət şəkilçiləri mənsubiyyət anlayışı bildirmək məqamında bir qrammatik vəzifəni yerinə yetirir. Bu, mənsubiyyət şəkilçilərinin nominal xarakteridir. Mənsubiyyət şəkilçiləri, eyni zamanda, paralel, ardıcıl komponentlərdə təkrarlıqla işlənir. Üslubi fiqurlar daxilində işləndiyi zaman mənsubiyyət şəkilçilərinin vasitəsilə ritorizm, pafos, həmçinin ritmiklik və ardıcıllıq keyfiyyətləri bildirilir. Bədii mətndə, improvizasiyada, danışıqda və hətta rəsmi şifahi nitqdə paralel, ardıcıl, təkrar linqvistik elementlərin kəmiyyəti poetik informasiyanın təsir gücü ilə həmahəng olur.

8. Hal şəkilçiləri mənsubiyyətdən fərqli olaraq müvafiq sintaqmatik ardıcıllıqla ümumi paradiqma yaratmır. Hal şəkilçiləri sözlər arasında ismi və feili əlaqə yaratmaqla özünəməxsus qrammatik nominasiyaları bildirməyə xidmət edir. Şəkilçili halların hər biri də müvafiq olaraq hər hansı emosionallığın pafosla, ritorika ilə, bəlağət və fəsahətlə ifadə olunması vasitəsinə çevrilir. Hal şəkilçilərinin poetizm yaratmasında da onların paralel, ardıcıl, təkrar işlədilməsi vacib şərt hesab olunur. Ritorizm və pafosla emosional duyğular, ahəngdarlıq və ardıcıllıqla, bir növ, mətndaxili ritm və qafiyə yaradılması baş verir.

9. Xəbərlik şəkilçiləri də paralel və ardıcıl komponentlərdə təkrarlıqla işlənərək ritm, ahəngdarlıq və qafiyəlilik yaradır. Bununla da cümlədə və mətnin emosionallıq təməlində pafos, ritorizm və

canlanma baş verir. Xəbərlik şəkilçilərinin poetizmi, əlbəttə ki, onun nominasiyasından və ona xas olan qrammatik anlayışdan təcrid olunmur, əksinə, poetikliklə səciyyələnən bütün emosional rəgarəngliklər xəbərliyin yüksək ifadəsinin canlandırılmasına xidmət edir.

10. Ad kateqoriyalarına məxsus qrammatik elementlərdə olduğu kimi, feil kateqoriyasına məxsus qrammatik elementlər də paralel və ardıcıl komponentlərdə işlənməklə təkrarlıq yolu ilə emosional təsirlərin canlandırılmasına xidmət edir.

Ad kateqoriyaları tərkibində *-lar* (-lər) cəm şəkilçisi qrammatik paradiqma yarada bilmədiyi kimi, feil kateqoriyalarında da inkarlıq və zaman şəkilçiləri paradiqma yaratmır. Lakin həmin şəkilçilərin mətndəki paralel və ardıcıl konstruksiyalarında, eləcə də həmcins üzvlərdə təkrarlıqla işlənməsi sayəsində emosional rəngarənglik yaradılır ki, bu da poetik vüsətin baş verməsində mühüm rol oynayır.

11. İnkarlıq şəkilçisi qrammatik ardıcıllığa görə söz tərkibində birinci sırada işlənir. İnkarlıq şəkilçisinin mətndə, eləcə də nitq prosesində ardıcıl olaraq təkrarlıqla işlədilməsi inkarlıq, ziddiyyət, qarşılıq anlayışlarını canlandırır. Həmin anlayışların emosionallıq yaratması isə pafosla və ritorizmlə müşayiət olunan poetik informasiyaları intensivləşdirir.

12. Zaman şəkilçiləri də inkarlıq elementi kimi xüsusi sintaqmatik əlaqə ilə səciyyələnmədiyinə görə daxili paradiqmaya malik deyildir. Qrammatik sıralanmaya görə inkarlıq bildirmə məqamında zaman şəkilçiləri söz tərkibinə inkarlıq şəkilçisindən sonra qoşulur. İnkarlıq bildirmə tələbi olmadıqda isə zaman şəkilçiləri sözə birbaşa qoşulur. Zaman şəkilçilərinin inkarlıq şəkilçisi ilə birlikdə işlənməsi üzrə baş verən poetik informasiya zamanın inkarlığına aid emosiyaları intenivləşdirir. Zaman şəkilçilərinin sözə müstəqil qoşulduğu məqamlarda isə zamana aid informasiyalar canlandırılır.

13. Şəxs şəkilçiləri feil tərkibinə inkarlıq və zaman şəkilçilərindən sonra qoşulmaqla inkarlığa və zamana görə paradiqmatik əlaqə yaradır. Feil kateqoriyasına aid olan qrammatik şəkilçilərin ardıcıl işlənməsi ilə inkarlığa, zamana və şəxsə görə baş verən anlayışlar bildirilir. Onların paralel, ardıcıl və həmcins

konstruksiyalarda təkrarlıqla işlənməsi isə informasiyaların canlanmasıa səbəb olur.

14. Feilin nominativ zamanlarında olduğu kimi vacib, lazım, arzu, şərt və əmr modal zaman formaları da paralel, ardıcıl və həmcins komponentlərdə təkrarlıqla işlənərək müvafiq modal anlayışları intensivləşdirir. Bununla da modal zaman anlayışlarında bədii, poetik informasiyalar canlandırılaraq mətnin təsirli və yaddaqalan olmasını şərtləndirir.

15. Dilin morfoloji quruluşunda köməkçi nitq hissələrinin də özünəməxsus mühüm rolu vardır. Qoşma və bağlayıcılar şəkilçi vasitələrinə köməkçi kimi nitq elementlərini bir-biri ilə bağlayır, ədat, modal söz və nidalar isə cümlədaxili elementləri müvafiq məna xüsusiyyətləri ;(qüvvətləndirmə, dəqiqləşdirmə, inkarlıq, təəssüf, məhdudlaşdırma, sual, əmr; gerçəkliyə münasibət və hiss, duyğu) əsasında emosionallıqla əlaqələndirməyə xidmət edir. Köməkçi nitq hissələrinin nominasiyasında qrammatikliklə yanaşı, paralel, ardıcıl, həmcins komponentlərə məxsus təkrarlıqla səciyyələnən bədii informativliyin canlı nümunələri öz əksini tapır.

**Dissertasiyanın ümumi məzmunu ilə əlaqədar aşağıdakı adda məqalə və konfrans materialları çap edilmişdir:**

1. Extra-linguistic and Linguistic Sources of Linguistic Means // – Vienna: The European Journal of Humanities and Social Sciences, – 2020. № 3, – p. 142-146.
2. Poetics of the Quantitative Suffix in the Azerbaijani Language // The Seventh International Youth Conference "Perspectives of Science and education", – New-York: – 10 May, – 2020, – p. 58-61.
3. İnkarlıq şəkilçisinin poetikası // – Bakı: Filologiya məsələləri, – 2020. № 5, – s.138-145.
4. Bağlayıcı və qoşmaların poetikası // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2020. № 1, – s. 359-365.
5. Feilin zaman və şəxs kateqoriyalarında ardıcıllıq və funksionallıq problemləri // – Naxçıvan: "Naxçıvan" Universiteti, Elmi əsərlər

(iqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat), – 2021. № 4 (23), – s. 114-120.
6. Feilin nominativ və modal zamanlarının poetikası // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2021. № 1, – s. 301-307.
7. Bədii mətnlərdə qoşmaların poetik xüsusiyyətləri // "Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri". Birinci Türkoloji Qurultayın 95 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi konfransın materialları, – Sumqayıt Dövlət Universiteti və Hacettepe Universiteti, – Sumqayıt: – 20-21 may, – 2021, – s. 212-214
8. Mənsubiyyət şəkilçilərinin poetikası // Gənc tədqiqatçıların V respublika elmi-praktik konfransının materialları, – Azərbaycan Universiteti, – Bakı: – 15 aprel, – 2022, – s. 258-260
9. Hal şəkilçilərinin poetikası // – Bakı: Dil və ədəbiyyat (BDU), – 2022. № 1 (118), – s. 431-434.
10. Bədii mətndə nidaların poetikası // – Bakı: Filologiya məsələləri, – 2023. № 1, – s.253-259
11. Bədii mətndə ədatların və modal sözlərin poetikası // – Naxçıvan: Axtarışlar (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq), – 2023. № 1, c. 17, – s.97-102
12. Xalqaro Ilmıy-Amalıy Anjuman//Ozbekiston Davlat Unıversıtetı, – Toshkent: – 15 Aprel, 09-13, –2026, –102-104.



Dissertasiyanın müdafiəsi 6 Oktyabr 2026-cı il tarixində saat 11:00-da AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyasının İ. Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 2 İyul 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.06.2026
Kağız formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 38 406 işarə
Tiraj: 100